# Həqiqətə qarşı vuruşanlar məğlubiyyətə düçar olacaqlar

Deyirlər ki, həyatda dəyişməyən heç nə yoxdur. Zaman keçdikcə nə varsa hamısı dəyişir, yenilənir. Əvvəl buna inanırsan. Amma sonra baxıb görürsən ki, heç də belə deyilmiş. Sən demə, həyatda yenilənməyən, dəyişilməyən, bir yerdə pas atıb qalan nəsnələr də var imiş.

Amerika Birləşmiş Ştatlarının ölkəmizə qarşı yeritdiyi siyasət kimi. Xeyli araşdırma aparandan sonra baxıb görürsən ki, arxada qalan 31 il ərzində ABŞ-nin ölkəmizə qarşı siyasətində dəyişən heç nə yoxdur. Necə deyərlər, elə köhnə hamam, köhnə də tasdı.

Fikrimizi əsaslandırmaq üçün bir anlıq keçmişə qayıdıb ötən illərdə ABŞ-nin Azərbaycana qarşı yürütdüyü siyasəti vərəqləyib nəzərdən keçirək. 1992-ci ildə ABŞ Konqresində ədalətsizcəsinə ölkəmizə yardımı qadağan edən 907-ci düzəlişi qəbul olunanda Ermənistan torpaqlarımızı işğal edirdi. Həmin vaxt amerikalıların başı Azərbaycan əleyhinə qətnamə qəbul etməyə qarışmışdı. Məhz qətnamələr qəbul olunan günlərdə də ermənilər Xocalıda və Qarabağın başqa yaşayış məntəqələrində Azərbaycan xalqına qarşı dəhşətli soyqırımlar törədirdilər. Bu gün Amerika yenə də əvvəlki ampluasındadı. Yenə də Konqresdə ədalətsizcəsinə Azərbaycan əleyhinə qətnamə qəbul olunur. Aradan 31 il keçib, amma Amerika elə həmin Amerikadır.

ABŞ-nin bu ədalətsiz əməllərini götür-qoy edəndə yadıma nə vaxtsa oxuduğum belə bir fikir düşdü. "Dünyada fikrini dəyişməyən iki zümrə var: biri ölülərdir, biri də dəlilər". İndi heç bilmirsən ki, Amerikanı bu zümrələrin hansına aid edəsən. Deyəsən ki, Amerika dəlidir, bununla çoxları razılaşmaz. Deyəsən ki, Amerika ölüdü, bu fikrin də altından kimsə imzasını atmaz. Deməli, Amerika nə ölüdü, nə də dəli... Sadəcə olaraq, ABŞ çox hiyləgərdi. Məqsədinə, məramına çatmaq üçün hiyləgərliyinin bütün variantlarını işə salıb müxtəlif istiqamətlərdən ölkəmizə qarşı təxribatlar törədir, qətnamələr qəbul edir. Amerika siyasətdə fikrini dəyişməsə də, təxribatlar törətmək üçün texnologiyalarını dəyişir. Amma yaxşı olardı ki, ABŞ Azərbaycana qarşı ədalətli mövqe tutub təxribat texnologiyalarını yox, siyasətini, fikrini dəyişsin.

Kim tanımasa da, biz Amerikanı yaxşı tanıyırıq. Çünki bu illər ərzində ABŞ heç vaxt Azərbaycana qarşı ədalətli mövqe nümayiş etdirməyib. Bir dəfə də olsun ağa ağ, qaraya qara deməyib. Həmişə tərsini söyləyib. Çünki yalan danışmağa öyrəncəlidi. Qarabağ münaqişəsinin mövcud olduğu dövrdə ABŞ ATƏT-in Minsk qrupunun həmsədri kimi də daim Ermənistana dəstək verib, düşmənə sərf edən statuskvonun qorunub saxlanılmasına çalışıb. Bu gün də erməni maraqlarına xidmət edən həmin çirkin və qərəzli mövqeyini çox iyrənc bir şəkildə davam etdirir. Artıq mövcud olmayan, hətta Ermənistanın belə tanımadığı "Dağlıq Qarabağın gələcəyi" adında dinləmələr keçirir, mövcud reallıqları zorla dəyişdirməyə çalışır. Əminliklə demək olar ki, bu vəziyyətdə əsas zərbə ABŞ-nin özünə dəyəcək. Çünki bir ovuc erməniyə görə Azərbaycanla strateji əməkdaşlığı zədələyən mövqe sərgiləmək siyasi baxımdan çox böyük səhvdir. Ümumiyyətlə, son illər ABŞ-nin xarici siyasətinin iflasa uğradığı gün kimi aydın görünür. İstər Əfqanıstanda, istər Suriyada, istərsə də postsovet məkanında Vaşinqton itirə-itirə gəlir. Azərbaycana qarşı qərəzli mövqe tutan Amerika deyəsən, dünyanın başqa yerlərində itirdiklərini bu gün Ermənistanın əli ilə Azərbaycanın başının üstündən Cənubi Qafqazda qazanmaq istəyir. Təbiidir ki, başqa yerlərdə olduğu kimi, ABŞ-nin yarıtmaz siyasəti burada da iflasa uğrayacaq. Çünki həqiqətə qarşı vuruşanları qələbə yox, məğlubiyyət gözləyir. Deməli, həqiqətlə vuruşan Amerika da gec-tez məğlubiyyətə düçar olacaq.

Azərbaycana qarşı siyasətini dəyişməyən ABŞ Senatı ermənilərin müdafiəsini nəzərdə tutan aktı qəbul etməklə daha bir ədalətsizlik etdi. Gün kimi aydındır ki, həqiqətdən uzaq olan bu qərəzli mövqe ABŞ-nin Qafqazdakı maraqlarına xidmət edir. "Azadlığa dəstək aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılmasını ləğv etməklə ABŞ tərəfi Azərbaycana qarşı 1992-ci ildə yol verdiyi tarixi səhvi kobudcasına yenidən təkrarlayır. Bu addımı ilə Amerika siyasətinin dəyişmədiyini bir daha təsdiq edir. Amma xatırlasa yadına düşər ki, 2001-ci il 11 sentyabr hücumlarından sonra Azərbaycan ABŞ-nin terrora qarşı mübarizə səylərini dəstəklədiyi zaman rəsmi Vaşinqton 907-ci düzəlişin icrasını müvəqqəti dayandırmışdı. İndi nə oldu ki, birdən-birə onların erməni sevgisi baş qaldırdı. Amerika unutmasın ki, 11 sentyabr hadisəsində məhz hava məkanı marşrutlarını və logistika imkanlarını, Şimal Paylayıcı Şəbəkəsini açmaqla Azərbaycan ABŞ tərəfinə yardım əlini uzatmışdır. Əfqanıstanda terrorizmə qarşı ABŞ ilə çiyin-çiyinə mübarizə aparan ilk dövlətlərdən biri də Azərbaycan olmuşdur.

Amerikanın ölkəmizə qarşı atdığı bu haqsız addım xalqımızda böyük narazılıq doğurub. Azərbaycan Respublikasının Milli Məclisində xalqın narazılığını özündə əks etdirən bəyanat qəbul olunub. Ümid etmək olar ki, ABŞ rəhbərliyi Azərbaycan xalqının fikrini, qəzəbini özündə əks etdirən bu bəyanata hörmətlə yanaşacaq, heç olmasa indidən sonra atmaq istədiyi qərəzli addımlardan çəkinəcək.

ABŞ-nin Azərbaycana qarşı təxribat xarakterli hərəkətləri yalnız bunlarla tamamlanmır. Bu günlərdə Amerikada daha bir ermənipərəst addım atılıb. Los-Anceles şəhərində Azərbaycan Konsulluğunun yanındakı prospektlərin kəsişməsinə "Artsax Respublikası meydanı" adı verilib. Şəhər şurası bu barədə yekdilliklə qərar qəbul edib. Təbiidir ki, burada erməni əli var. Yoxsa, sadə amerikalının nəyinə lazımdır ki, gül kimi meydanına gətirib itin-qurdun adını versin. Deyəsən, elə Amerika başdan-ayağa ermənilərdən ibarətdir. Bu xəbərin maraqlı cəhəti odur ki, heç işğalçı Ermənistan əzəli Azərbaycan torpağında yaratmış olduğu qondarma terrorçu qurumu tanımamışdı. Amma Amerika mövcud olmayan, heç kimin tanımadığı, qondarmadan da qondarma olan keçmiş bir qurumun adını meydanına qoyur. Əgər ABŞ erməniləri bu qədər çox istəyirsə, qoy elə bütün erməniləri yığıb aparıb töksün öz ölkəsinin ərazisinə. Onda bizim də canımız belə şərəfsiz, saxta, xəyanətkar, işğalçı qonşulardan və onların himayədarlarından birdəfəlik qurtarar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 23 noyabr, № 255.- S.9.